*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 108-115* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.108*

# Qulamrza Səbri Təbrizi: milli ruhun səfiri

**Kifayət Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: mamedovakifayat@inbox.ru

**Annotasiya.** Azərbaycan türklərinin tarixi, dili və mədəniyyətini öz yaradıcılığına hopdurmuş azərbaycanlı şair Qulamrza Səbri Təbrizi yalnız Azərbaycan ədəbiyyatının deyil, eyni zamanda ümumtürk ədəbiyyatının görkəmli şairlərindən biridir. Yaradıcılığında milli ruha, vətən sevgisinə xalqın hüquqlarının qorunmasına önəm verən şair, öz bədii irsi ilə həm Quzey, həm Güney Azərbaycanda milli şüurun oyanmasında mühüm rol oynamışdır. Sələflərinin – Füzuli, Nizami, Xaqani kimi Azərbaycan poeziyasının klassiklərinin yaradıcılığına dərindən bələd olan şair öz əsərləri ilə ana dilinin qorunmasına və yayılmasına çalışmış, eyni zamanda ictimai ədalətsizliyi, xalqın çəkdiyi əzabları da şeirə gətirmişdir. Şair xalqın ictimai-siyasi problemlərini bütün dünyaya çatdırmaqda mühüm rol oynamış və 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi təyin olunmasında açar rol oynamışdır.
Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədr müavini seçilən şair ömrünün son günlərini doğma Azərbaycanda – Bakıda keçirmiş və ölənədək dünya azərbaycanlılarının birliyi üçün çalışmışdır.
**Açar sözlər:** Güney Azərbaycan, Milli ruh və ədəbiyyat, Vətən sevgisi, ictimai ədalətsizlik, milli mübarizə

**Məqalə tarixçəsi:** göndərilib – 14.05.2025; qəbul edilib – 27.05.2025

# Gulamrza Sabri Tabrizi: ambassador of the national spirit

**Kifayat Mammadova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: mamedovakifayat@inbox.ru

**Abstract.** Azerbaijani poet Gulamrza Sabri Tabrizi, who incorporated the history, language, and culture of Azerbaijani Turks into his works, is a prominent figure not only in Azerbaijani literature but also in the broader Turkic literary tradition. His poetry emphasizes national spirit, love for the homeland, and the protection of people's rights. Through his literary legacy, he played a crucial role in awakening national consciousness in both Northern and Southern Azerbaijan. Familiar with the works of classical Azerbaijani poets such as Fuzuli, Nizami, and Khagani, Sabri Tabrizi sought to preserve and promote his native language while also addressing social injustice and the hardships of his people in his poetry. He played a key role in bringing the socio-political issues of his nation to the world's attention and contributed significantly to establishing December 31 as the Day of Solidarity of World Azerbaijanis.
Elected as the Deputy Chairman of the World Azerbaijani Coordination Council, he spent the final years of his life in his homeland, Baku, tirelessly working for the unity of Azerbaijanis worldwide until his passing.
**Keywords:** South Azerbaijan, national spirit and literature, love for the Motherland, social injustice, national struggle

**Article history:** received – 14.05.2025; accepted − 27.05.2025

## Giriş / *Introduction*

Qulamrza Səbri Təbrizi müasir Azərbaycan ədəbiyyatının, eləcə də ümumən Türk dünyasının ədəbi-mədəni irsində dərin iz qoymuş şəxsiyyətlərdən biridir. O, milli ruhun ifadəçisi, azərbaycançılıq ideyasının daşıyıcısı və ədəbi yaradıcılığında milli kimliyimizi qoruyub saxlayan sənətkardır. Təbrizdə dünyaya göz açan bu böyük şəxsiyyət Azərbaycan türklərinin tarixi, dili və mədəniyyətinə olan sevgisini təkcə poeziyasına deyil, bütün yaradıcılığına hopdurmuşdur.

Milli ruh və şairin kimliyinə nəzər salsaq görərik ki, şair şeirlərində və publisistik fəaliyyətində daim xalqın milli ruhunu ön plana çəkmişdir. Onun yaradıcılığı Azərbaycan xalqının azadlıq uğrundakı mübarizəsinin poetik əks-sədasıdır. Təbrizdə doğulub boya-başa çatmasına baxmayaraq, Səbri Təbrizi bütün Azərbaycanı – Quzey və Güney hissələrini bir bütöv kimi görmüş, milli həmrəylik ideyasını təbliğ etmişdir. Şairin əsərlərində Türk dünyasının birliyi və Azərbaycan türklərinin milli ruhunun əzəməti özünü göstərir.

## Əsas hissə / *Main Part*

Qulamrza Səbri Təbrizi 1934-cü illərdə Təbrizdə dünyaya göz açmışdır. Təbriz, Azərbaycan mədəniyyətinin və azadlıq hərəkatlarının beşiyi kimi, onun formalaşmasında böyük rol oynamışdır. Təbrizdə təhsil alan və mədəni mühitin təsiri ilə yetişən Səbri Təbrizi, gəncliyindən etibarən xalqının taleyi və gələcəyi ilə maraqlanmış, poeziya və publisistika vasitəsilə öz düşüncələrini ifadə etmişdir.

Onun şeirlərində azadlıq, vətən sevgisi, xalqının hüquqları uğrunda mübarizə kimi mövzular əsas yer tutur. Xüsusilə, onun milli şüurun oyadılmasında və azərbaycanlıların öz tarixi kimliyini dərk etməsində rolu əvəzsizdir.

Azərbaycan klassik poeziyasının ənənələrinə dayanır. O, şeirlərində ana dilinin gözəlliyini və zənginliyini vurğulamış, ədəbiyyatda milli ruhun yaşadılmasına xidmət etmişdir. Onun əsərlərində Füzuli, Nizami, Xaqani kimi Azərbaycan poeziyasının klassiklərinin təsirini görmək mümkündür.

Eyni zamanda Səbri Təbrizi öz dövrünün problemlərini də qələmə almış, ictimai ədalətsizlik, xalqın çəkdiyi əzablar və milli mübarizə kimi mövzulara toxunmuşdur. Bu, onun poeziyasını həm klassik, həm də müasir edən əsas cəhətlərdən biridir.

Mühacir şairin şeirləri vətənə məhəbbət və həsrət motivlərindən qanad taxmışdır. O, deyir: İnsan vətəndən çıxa bilər, Vətən insandan çıxa bilməz. “Doğma elindən uzaq olan, lakin ürəyi daima Azərbaycan sevgisi ilə döyünən şair öz isti duyğularını “Yaxın-Uzaq Vətən” adlı şeirində yazmaq ehtiyacın duymuşdur:

*Səni sevdiyimçün,*
*Eşqini sinəmdə*
        *gəzdirdiyimçün*
*Özümü xoşbəxt sanıram*
*Səninçün yaşayıram,*
        *səninçün yanıram.* [1, s.23]

Bu misraların nəfəsi şair hisslərindən doğan duyğular, Vətən eşqini sinəsində gəzdirdiyi üçün özünü xoşbəxt sayan, Vətən üçün yaşayan, yurd sevgisiylə çırpınan həzin pıçıltılardır.

Vətəndən ayrı düşənlərin, onun suyuna, havasına, torpağına həsrət qalanların taleyinin nə

qədər acı, nə qədər dəhşətli olduğu Qulamrza Səbri Təbrizinin “Qürbət ömrü” şeirində bütövləşmişdir:

*Qürbətdə yaşamaq*
*Anadan, Vətəndən*
*ayrı düşməkdi,*
*Yad dildə danışmaqdı,*
*düşünməkdi.*
*Ürəyin yad sevdalara əl açmasıdı,*
*Yabançı duyğulara*
*möhtac olmasıdı.* [5, s.80]

Səbri Təbrizinin yaradıcılığında Güney Azərbaycanın dərdləri, azadlıq və milli kimlik uğrunda mübarizə xüsusi yer tutur. Onun şeirləri yalnız bədii sənət nümunələri deyil, eyni zamanda bir manifest, xalqın ürəyindəki sızıltının ifadəsidir. Şairin əsərlərində Vətənə olan sevgisi, Təbrizə və bütöv Azərbaycana duyduğu həsrət açıq-aydın hiss olunur. O, xalqının əsarət altında qalmasını qəbul etməyərək, poeziyası ilə mübariz bir ruh aşılamışdır.

Qulamrza Səbri Təbrizi yalnız bir şair və yazıçı deyil, həm də Təbrizin və bütövlükdə Azərbaycanın simvoludur. Onun yaradıcılığı, Təbrizdə milli mədəniyyətin qorunması və inkişafı istiqamətində göstərilən böyük səylərin təcəssümüdür. O, xalqının ruhunu ifadə edən bir səs olmuş və bu səslə bütün dünyaya Azərbaycanın zəngin mədəniyyətini çatdırmışdır.

Şair Azərbaycan dilinin və mədəniyyətinin qorunması uğrunda fəaliyyət göstərən bir mədəniyyət səfiri idi. O, ana dilini bir xalqın varlığının və milli kimliyinin əsası kimi qəbul edirdi. Yazıçının əsərlərində dilimizin gözəlliyi, zənginliyi və bu dil vasitəsilə milli ruhun qorunub saxlanması ideyası ön plandadır.

Vətən məhəbbəti mücərrəd anlayış deyil, insandan real mənəvi qüvvə, bacarıq və yurdsevərlik tələb edir. Başqa xalqların nümayəndələrində olduğu kimi, Azərbaycan övladlarında da doğma torpağa bağlılıq hissi və vətən məhəbbəti hədsiz dərəcədə böyükdür. Onlar bunu zamanın bütün dönəmlərində canı və malı ilə dəfələrlə sübut etmişlər.

Öz vətənini sevmək – bəşəriyyətin mütərəqqi ideyalarının həyata keçirilməsinə kömək etmək deməkdir. “Vətən”, “xalq” sözlərini tez-tez dilə gətirən hər kəsi vətənpərvər adlandırmaq olmaz. Əsl vətənpərvər vətənə məhəbbətini sözlə deyil, əməli fəaliyyəti ilə nümayiş etdirir. Qürbətdə yaşamasına baxmayaraq, öz vətəninə ruhən bağlı olan Qulamrza Səbri Təbrizi kimi.

“Siyasi icmalçı kimi Böyük Britaniyanın müxtəlif televiziya və radio kanallarında müntəzəm çıxış edən Qulamrza bəy Azərbaycan Respublikasının problemləri, xüsusilə Qarabağ müharibəsi haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında əlindən gələni əsirgəmir. O, bu məqsədlə dəfələrlə Azərbaycana gəlmiş, respublikamızın siyasi vəziyyəti ilə yaxından tanış olmaq imkanı əldə etmişdir. Bu səfərlərin nəticəsi onun Azərbaycan haqqında hazırladığı müxtəlif televiziya verilişlərində öz əksini tapmışdır” [3, s.4].

Bütün bunları yaxşı bilən Qulamrza Səbri Təbrizi ölkəmizin kommersiya təşkilatları ilə Avropa ölkələrində yaşayan həmvətənlərimizin birgə müştərək fəaliyyəti üçün hər cür şərait yaradılmasında əlindən gələni əsirgəməmişdir. Bu məqsədlə ona müraciət edənlər razılıq hissi ilə ayrılmışlar.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün 31 dekabra təyin olunmasında əsas məqsəd il ərzində diaspor istiqamətində görülən işlərə yekun vurmaq və növbəti il üçün işlərin planlaşdırılması idi. Milli maraqlar Azərbaycan diasporunun sıx birləşməsini, yaxşı təşkilatlanmasını və beynəlxalq birlikdə möqeyinin möhkəmlənməsini tələb edirdi.

Zaman-zaman aparılan işlər öz bəhrəsini verməyə başladı. 31 dekabr azərbaycançılıq ideologiyasının təbliğ olunmasına və dünya azərbaycanlılarının malik olduğu milli gücün realizə

edilməsinə imkan verdi.

Son illər Qulamrza Səbri Təbrizinin rəhbərlik etdiyi Dünya Azərbaycanlıları Konqresi və onun Avropa ölkələrindəki diasporu bütün gücünü 31 dekabrda - Dünya Azərbaycanlılarının Həmrəylik Gününə - lobbiçilik ənənələrimizin bütün Avropada yayılmasına yönəltmişdir. Əlamətdardır ki, bu, öz nəticəsini vermiş və Avropanın bir sıra şəhərlərində diasporun güclü qanadları yaranmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultay tribunasında geniş nitq söyləyərək bildirdi:

"Bu sahədə görülən bütün tədbirlər, atılan bütün addımlar öz bəhrəsini verməkdədir. Dünyada yaşayan soydaşlarımız təşkilatlanır, yaşadıqları ölkələrin həyatında daha fəal rol oynayırlar. Əlbəttə ki, bu, həm onların mövqelərini möhkəmləndirir, eyni zamanda müstəqil Azərbaycan Respublikasının mövqeyini gücləndirir, əhəmiyyətini artırır. Biz çox şadıq ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin dövlətlərin həyatında, iqtisadiyyatında çox mühüm rol oynayırlar və artıq möhkəm mövqelərə malikdirlər" [7, s.134].

Qulamrza Səbri Təbrizi və onun rəhbərlərindən biri olduğu DAK-ın üzvləri hər iki qurultayda fəal iştirak edərək, Azərbaycan diasporunun gələcək fəaliyyəti üçün vacib qərarların qəbul olunmasında əməklərini əsirgəmədilər.

Qulamrza Səbri Təbrizi qurultay tribunasından bildirdi: "Xatirimdədir ki, cənab Prezident Heydər Əliyev söhbətində çox əsaslı məsələlərə toxundu. Onlardan biri bu idi ki, biz özümüzdən soruşmalıyıq: Mən Azərbaycana nə verə bilərəm, nə verməliyəm? Nəinki düşünməliyik ki, Azərbaycan mənə nə vermişdir. Bu, orada bizim fəaliyyətimizin mənasıdır, fəlsəfəsidir. Azərbaycana nə etməliyik, nə edək? Düşünürəm ki, bu, nəinki bizim, həm də Azərbaycanda yaşayanların, dövlət adamlarının, müəllimlərin, həkimlərin düşüncəsi olmalıdır ki, mən Azərbaycan üçün nə etmişəm və nə edə bilərəm" [4, s.2-3].

Bəli, vətən məhəbbəti, xalq məhəbbəti uzaq ellərdə bizləri ləyaqətlə təmsil edən Q.Təbrizi kimi insanların qəlbindən çıxmamışdır.

2008-ci il iyun ayının 21-22-də Belçikanın paytaxtı Brüsseldə Dünya Azərbaycanlılarının Konqresi özünün növbədənkənar X qurultayında həmrəylik nümayiş etdirərək, bir daha özünün monolit təşkilat olduğunu təsdiqlədi. Parçalanmış digər qurumları ətrafına birləşdirən X qurultaydan dərhal sonra keçirilən DAK İH-nin ilk iclasında doktor Məmmədrza Heşti (ABŞ) və professor Paşa Qəlbinur (Azərbaycan) DAK-ın həmsədri seçildilər. Professor Qulamrza Səbri Təbrizi (Böyük Britaniya) isə diaspor fəaliyyətində xidmətlərinə görə DAK-ın fəxri sədri seçildi.

Qulamrza Səbri Təbrizi mənəvi sələflərinin davamçısı olduğu kimi, özünü hərtərəfli inkişaf etdirmiş fikir adamıdır. Əgər belə olmasaydı, gənc yaşlarından qürbət məmləkətdə bu qədər irəli getməyə gücü və qüdrəti çatmazdı.

XX əsrin ortalarında və ikinci yarısında hadisələrin sürətlə bir-birini əvəz etdiyi dövrdə Güney Azərbaycan poeziyasının vəziyyəti necə idi? Axı, milli-azadlıq hərəkatı xalqın bütün təbəqələrini əhatə etmişdi; o cümlədən şairlər də bu hərəkatın fəal iştirakçıları idilər! Deməli, yeni hadisələr və proseslər bədii yaradıcılıq üçün yeni mövzular verirdi. Lakin Güney Azərbaycanın ictimai-siyasi mühiti, doğma dildə danışmağın, yazmağın qadağan edilməsi siyasəti bədii əsərlərin yaranması üçün imkan vermirdi. Digər tərəfdən əsər yazıldığı halda belə, çap olunması mümkün deyildi. Düzdür, tək-tək hallarda nəsə yaradılırdı, lakin ümumi götürdükdə şah istibdadı dövründə Güney Azərbaycan poeziyasında sərbəst şeirlə bağlı bir solğunluq vardı.

Bütün mühacirlər kimi, Qulamrza bəyin də bəxtinə, taleyinə düşən kədərli və iztirablı həyat yolu onun şeirlərinə hopmuş və yazılarına həzin, nisgilli bir ovqat aşılamışdır. O, ürəyindəki ilham məşəlini, püskürən həsrət vulkanını yalnız poeziyanın odlu, alovlu, təsirli dili ilə söndürməyə müvəffəq olmuşdur. Görkəmli ədib gördüyünü sözə çevirən, dərk etdiyinə həyat eşqi verən, hisslərinə toxunanı şair qəlbi ilə vəsf edən sənətkardır. Təbrizinin şeiri elə Təbrizi varlığı

deməkdir. Onun poeziyasında kitab leksikonundan, yazılı dildən uzaq bir təmizlik və sadəlik var. Mühacir şairin ürək çırpıntıları, qəlbinin harayı, mübarizəsi, əqidəsi, məramı, sevgisi, nifrəti qətrə-qətrə şeir kitablarına səpələnib: "Vətən həsrəti" (1993), "Mənim iki dünyam" (1997), "Fikir dalğaları" (1997), "Həyat fəlsəfəsi" (1997), "Sönməz ocaq" (2000).

Azad gələcəyə inam, əvvəl-axır zalımların məhv ediləcəyinə, qaranlığın çəkilib səhər açılacağına sarsılmaz inam şairlərin ürəyinə xalq və vətən məhəbbətilə dolmuş və bu sevgi nəsildən-nəslə keçmişdir. Bəli, vətən eşqi, xalqa məhəbbət insanın fikrini hərəkətə gətirən, iradəsini möhkəmlədən ecazkar qüvvədir və bu işıqsaçan qüvvə həmişə cənub şairlərini ilhamlandırmışdır. Qulamrza Səbri Təbrizi də həmin şairlərin sırasındadır:

*Biri Arazın o tayında,*
*Biri bu tayında.*
*Aralarında tikanlı sərhəd*
*məftilləri.*
*Amma Xəzər birləşdirir*
*sularıyla.*
*Toxunuram suya bu sahildə,*
*Duyuram ruhumu o sahildə.*
*Bir də ay, səma birləşdirir,*
*Günəş birləşdirir.*
*Havanın, küləyin qoxusu birləşdirir.*
*Necə bir vətənə*
*iki deyəsən?.* [5, s.55]

Qulamrza Səbri Təbrizinin Azərbaycanın ən yaralı yeri olan Qarabağ probleminə özünəməxsus münasibəti vardır. Şair Qarabağ münaqişəsi başlandığı ilk gündən bütün rahatlığının pozulduğunu poetik bir dillə ifadə etmişdir. Eləcə də, qürbətdə yaşayan həmyerlilərimizin hər vasitə ilə Azərbaycana kömək etməyə çalışması vətənpərvərlik amalı kimi səciyyələndirilir. Şairin qənaətincə, xaricdəki soydaşlarımız öz işini görsə də, başlıca məsələ xalqın birliyi, öz gücünə inamıdır. Azərbaycan xalqı öz problemlərini yalnız özü həll edə bilər. Kənar qüvvələr ancaq öz mənfəətini güdür və siyasətini maraqlar üzərində qurur. Şair fikirlərini nəzmə çəkərək "Qarabağ harayı" şeirini yazır:

*Yuxumda görürəm*
*minib zülmət yaran tankıma.*
*Almışam*
*Şuşanı,*
*Qarabağı,*
*Kəlbəcəri qucağıma.*
*Doldururam*
*şəhərləri,*
*kəndləri uçan quşlarla.*
*Hətta qovuram düşməni*
*qədim İrəvan yurdumdan.* [2, s.297]

Şeirin sonrakı sətirlərində müəllif torpaqlarımızın düşmən əsarətindən xilas olması ilə bağlı qənaətlərini aşağıdakı kimi ümumiləşdirir:

*Bu, yuxu deyil,*
*həqiqətdi, inanın,*
*Verməsə düşmən torpaqlarımı,*

*Qoymaram*
*İrəvanda – Ermənistanda bu zalımları.*
*Sürərək zülmət yaran*
*tankımla sülh yolunda.* [2, s.297]

Qarabağ problemini ətraflı bilən Qulamrza Səbri Təbrizi müsahibələrin birində deyir: "Xalqımız uydurma Qarabağ problemi ilə, erməni təcavüzü ilə sınağa çəkilib. Sülh danışıqlarını aparmalıyıq, yoxsa bizə davakar damğası vurarlar. Ancaq bu da baş tutmasa, silah gücünə torpaqlarımızı azad etməliyik. Erməni tarixən əlaltı, nökər olub, onun-bunun sözü ilə oturub durub. Erməni kötək yeməsə, ağlı başına gəlməz. Qarabağı düşmən tapdağından xilas etməsək, bir ləkə kimi üstümüzdə qalacaq, bütün dünya qarşısında başıaşağı olacağıq. Odur ki, bu gün əsgərə, əsgər ailəsinə qayğı bir nömrəli vəzifəmiz olmalıdır. Kənardan hansısaköməyə bel bağlamamalıyıq. Vasitəçi dövlətlər öz mənafelərindən çıxış edirlər. Başımıza yalnız özümüz çarə qıla bilərik. Qondarma siyasətçilər, saxta vətənpərvərlər xalqda özünə inamı sarsıtsalar da, vəziyyət ümidsiz də deyil. Torpağı qaytarmaq üçün xalqda bu inamı bərpa etmək lazımdır. Övladlarımızı Vətənə məhəbbət, düşmənə nifrət ruhunda tərbiyə etməliyik. Səməd Behrəngi deyir ki, "dosta məhəbbət müqəddəs olduğu kimi, düşmənə nifrət də müqəddəsdir" [6, s.134-135].

Qulamrza Səbri Təbrizi Qarabağ probleminin xalqımızın xeyrinə həll olunacağına inanırdı.

Qulamrza Səbri Təbrizi "Müharibə və ədəbiyyat" məqaləsində yazır: "Şair, yazıçı xalqdan ayrı yaşaya bilməz, yaşasa da, əsl yazıçı ola bilməz. Çünki hamımız bir vücudun üzvüyük: o da insanlıqdır. Bu hiss məndə ermənilərin Azərbaycanın torpaqlarına son illərdə təcavüzü zamanı Xocalı soyqırımı törədiləndə yaşandı. Amma bu dəfə daha dərdli yaşadım bu faciəni. Çünki burada ümuminsani məsələlərlə yanaşı, mənim millətimin faciəsi dayanır gözüm qarşısında. Amma əlim yetməyən yerlərdə mənim minlərlə soydaşımı məhv etdilər, yurdundan-yuvasından didərgin saldılar. Əlimdən bir şey gəlmirdi ki, bunun qarşısını alam, millətimə kömək edəm. Amma bir yazıçı olaraq qələmimi ox eləyib radio və televiziya vasitəsilə düşmənin ürəyinə sancırdım. BBS və digər televiziyalar vasitəsilə deyirdim ki, bir məzlum millət rus imperiyasının başçılığı və erməni nökərçiliyi ilə tapdalanır" [4, s.71].

Qulamrza Səbri Təbrizi Azərbaycan ədəbiyyatını və mədəniyyətini qiymətli əsərlərlə zənginləşdirmiş yazıçıdır. O, Azərbaycanın azadlığı və səadəti üçün yorulmaz bir qüvvətlə çalışmış, həyat və təfəkkürün köhnəlmiş, mürtəce cəhətlərinə qarşı barışmaz mübarizə aparmışdır. Onun əsərləri dərin ideyalılıqla yüksək bədiiliyin nümunəsidir. O, zəmanəsinin qabaqcıl adamı olmuş, cəmiyyəti maraqlandıran ən canlı məsələlərlə yaşamış, mübarizələrin içində böyümüş, xalqının tarixini, həyat və arzularını çox gözəl bilmiş, bəşər mədəniyyətinin ən yaxşı nümunələrini mənimsəmiş və həmişə insanı irəli aparan, insan fikrini ucaldan, ürəyində nəcib humanizm duyğuları oyadan ictimai şəraitin təntənəsi üçün çalışmışdır.

Unutmaq olmaz ki, tədqiqatçının əsərlərində müşahidə edilən cəhət Azərbaycanın humanist ruhuna uyğundur. Yoxsullara əl tutmağa, yardım etməyə çağırış həyatda xeyirxah, ədalətli adamların olduğuna inam nikbinliyini təyin edən xüsusiyyətlərdəndir. Bu cəhət Qulamrza Səbri Təbrizinin xeyirxahlıqla müəyyən məhrumiyyətlərin aradan götürüləcəyinə inamı ilə bilavasitə əlaqədardır.

Qulamrza Səbri Təbrizi mədəniyyətin və ədəbiyyatın orijinallığı yolunda mübarizə aparıb onun özünəməxsus yüksək keyfiyyətlərini müdafiə edərkən heç bir vəchlə milli məhdudluğa yol verməmişdir. Əksinə, dönə-dönə həqiqi elm və mədəniyyətin, ədəbiyyatın, əsl yüksək sənətin məhdud çərçivələrə sığmadığını, bütün xalqların, bütün millətlərin malı olduğunu göstərmişdir. Milli ədəbiyyatımızın ümumdünya, xüsusən ümumşərq əhəmiyyəti özünü bir də onda göstərir ki, bütün Yaxın Şərqdə bədii və fəlsəfi fikir tarixində humanist, demokratik və realist mədəniyyətin yayılmasında fəal tarixi rol oynamışdır.

Xalqın dilinin dərdinə qalmaq, xalqın səadəti yolunda mübarizə etmək - bu idi Qulamrza Səbri Təbrizinin müqəddəs hesab etdiyi ideal! Bu yolda o, bacardığını edir, qəlbi və vicdanı təmiz olan, satqınlıq bilməyən hər kəsi də bu mübarizəyə qoşulmağa çağırır: "Mənim qürbət illərində düşüncələrimin əsasında dayanan, vaxt-bivaxt zehnimi, şüurumu narahat edən məsələlərdən biri Ana dili olmuşdur. Şəxsi təcrübələrim Ana dilinin Azərbaycanın Güneyində öyrənilməsi zərurətini istər elmi, istərsə də adi insani baxımdan şərtləndirmişdir. Ana dilinə olan həssas münasibətim mənim S.Behrəngi ilə sıx əlaqə yaratmağıma bais oldu. S.Behrəngi ilk dəfə olaraq Ana dilinin öyrənilməsi üçün kitabı yazdı. Şah hökuməti bunu biləndə bərk təşvişə düşmüşdü. Həmin kitabın əlyazmasını məhv etmək istəyirdilər. Lakin S.Behrəngi ayıq düşüb həmin əlyazmanı aradan çıxardı, sonradan da onun çap olunmasına icazə vermədilər. Ömrümdə neçə dil öyrəndim, ingiliscə kitab yazdım, amma ana dilinin şirinliyi ruhumdan getmədi və getməyəcək. Ən çətin günlərimdə yeməyimdən kəsib Londondan anama zəng edərdim, onun səsini eşidib qüvvət alardım. Anamın səsi - mənim qüdrətim, ictimai durumumdu. Əcnəbi dil məni yorurdu, yorğunluğu ana dilində danışığa qulaq asmaqla çıxarırdım. Balıq sudan kənara düşməsə, suyun qədrini bilməz. O insanlar ki, ana dilindən ayrı düşməyiblər, məni çətin dərk edərlər. Ümidvaram ki, bir zaman gələcək, insanların həyatı bu cür mənəvi terror və məhrumiyyətlərdən uzaq olacaq. Ana dili varlıqdır, həyatdır, ruhdur, yaradıcılıqdır" [6, s.7-8].

## Nəticə / *Conclusion*

Qulamrza Səbri Təbrizi 2001-ci ildə Dünya Azərbaycanlıları Konqresinin İsveçin Malmo şəhərində keçirilən V Qurultayının iştirakçısıdır. Həmin il Dünya Azərbaycanlılarının Bakıda keçirilən qurultayında məruzə ilə çıxış etmiş, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədr müavini seçilmişdir.

Qulamrza Səbri Təbrizi yalnız şair deyil, həm də milli ruhun və Azərbaycançılıq ideologiyasının səfiridir. Onun yaradıcılığı, xalqına olan sevgisi və azadlıq həsrəti milli yaddaşımızın ayrılmaz hissəsidir. Vətən fədaisi Qulamrza Səbri Təbrizi Bakı şəhərində 8 may 2020-ci ildə dünyasını dəyişdi. Səbri Təbrizi, xalqın milli ruhunun qoruyucusu və gələcək nəsillərə çatdırıcısı kimi əbədi olaraq Azərbaycan ədəbiyyatında yaşayacaqdır.

Bu böyük şəxsiyyətin əsərləri və ideyaları Azərbaycan xalqının milli kimliyini qorumaq uğrunda mübarizəsində mühüm rol oynayır. Onun adı, milli ruhun səfiri kimi tarixdə əbədi olaraq qalacaqdır.

## Ədəbiyyat / *References*


1. Şəmsizadə N.Ş. Azərbaycan ədəbiyyatşünaslığı. – Bakı: Ozan, 1977, 292 s.
2. Şükürov A.M. Fəlsəfə. – Bakı: Adiloğlu, 2002, 490 s.
3. Təbrizi Q.S. Baxışlar, düşüncələr, arzular (tərc.edən və elmi red. Q.Piriyev). – Bakı: Şirvannəşr, 2000, 212 s.
4. Təbrizi Q.S. Dil haqqında düşüncələrim // Güneyin səsi, 2011, №3, s.2-3.
5. Təbrizi Q.S. Günəşə doğru. – Bakı: Apostrof, 2011, 220 s.
6. Təbrizi Q.S. Pozulmamış dünya / T.Q.Təbrizi, red. V.Sultanlı, ön söz müəl. Q.Namazov. – Bakı: Azərnəşr, 2010, 216 s.
7. Təbrizi Q.S. Sönməz ocaq (tərt. ed. və red. V. Sultanlı, ön söz müəll. Hüseynoğlu). – Bakı: Şirvannəşr, 2000, 172 s.

# Гуламрза Сабри Тебризи: Посол национального духа

**Кифаят Мамедова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: mamedovakifayat@inbox.ru

**Резюме.** Азербайджанский поэт Гуламрза Сабри Тебризи, впитавший в свое творчество историю, язык и культуру азербайджанских тюрок, является выдающимся поэтом не только азербайджанской, но и общетюркской литературы. В своем творчестве он уделял особое внимание национальному духу, любви к Родине и защите прав народа. Своим литературным наследием он сыграл важную роль в пробуждении национального сознания как в Северном, так и в Южном Азербайджане. Поэт, хорошо знакомый с творчеством таких классиков азербайджанской поэзии, как Физули, Низами и Хагани, стремился сохранить и распространить родной язык, а также отражал в своих стихах социальную несправедливость и страдания народа. Он сыграл важную роль в донесении общественно-политических проблем своего народа до всего мира, а также внёс значительный вклад в учреждение 31 декабря как Дня солидарности азербайджанцев мира.
Будучи избран заместителем председателя Всемирного координационного совета азербайджанцев, последние годы своей жизни он провел на родине – в Баку, до конца своих дней продолжая работать во имя единства азербайджанцев всего мира.
**Ключевые слова:** Южный Азербайджан, национальный дух и литература, любовь к Родине, социальная несправедливость, национальная борьба